# Keşməkeşlər içində keçən ömür...

## Görkəmli alim, şair Mikayıl Rəfilinin 120 illik yubileyi tamam olur

Ömrünün qışını - qocalığını görmədən, əlli üç yaşında vəfat etmişdi yazıçı, şair, tənqidçi, ədəbiyyat nəzəriyyəçisi, tərcüməçi Mikayıl Rəfili. Dünyadan gedişi ilə yaşıdlarına ölümün çox da uzaqda olmadığını xatırlatmışdı. Onun vaxtsız ölüm xəbərindən duyduğu kədəri dostu, türkiyəli şair Nazim Hikmət bu misralarla ifadə etmişdi:

*Nəslimin yarpaq tökümü başlandı.*
*Çoxumuz qışa qalmayacayıq...*
*Dəliyə döndüm, Rəfili*
*Ölüm xəbərini alanda.*
*...Düşünürəm, məndən çox sonra öləcək,*
*dalımca bir məqalə də yazacaq,*
*Ya da bir şeir:*
*"Nazimlə Moskvada 24-də tanış olduq".*

Mikayıl Rəfili 1905-ci il aprelin 25-də keçmiş Gəncə (o zamanlar Yelizavetpol adlandırılırdı) quberniyasının Goranboy nahiyəsinin Borsunlu kəndində varlı ailədə dünyaya gəldi. İbtidai təhsilini Borsunlu kəndində aldı. Sonra Yelizavetpol Klassik Gimnaziyasında oxudu. Bədii yaradıcılığa da həmin illərdə başladı. "Mikayıl Rəfizadə" imzası ilə 1919-cu ildə "Əfkari-Mütəəllimin" jurnalında "Mücadileyi-həyat" hekayəsi, "Elmə doğru" şeiri və "Qərb mədəniyyəti" məqaləsi işıq üzü gördü.

1920-ci ildə sovet hökuməti Azərbaycanda hakimiyyəti ələ keçirdi. Yeni hökumətin ilk vaxtlarında Mikayıl Rəfili Borsunlu kəndində müəllim və məktəb müdiri işlədi. Kəndin mədəni həyatında fəallıq göstərən gənc komsomol sıralarına qəbul edildi. Müxtəlif mövzulu yazılarla "Rosta" qəzetində çıxış etdi.

Bir müddət sonra Bakıya gəldi, həm ali təhsil aldı, həm də əmək fəaliyyətini davam etdirdi. Azərbaycan Politexnik İnstitutunda (hazırda Azərbaycan Texniki Universiteti) oxudu. O həm də Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərq dilləri fakültəsində məşğələlərin dinləyicisi oldu. 1926-1927-ci illərdə "Maarif və mədəniyyət" jurnalı redaksiyasında işlədi. Ədəbiyyat vurğunu, bədii yaradıcılıqla məşğul olan gənc böyük həvəslə əsərlər yazdı.

Təhsilini davam etdirmək istəyi onu 1927-ci ildə SSRİ-nin paytaxtına apardı. Moskva Dövlət Universitetinə qəbul oldu. Universitetdə təhsil alarkən Kremldə qanunların Azərbaycan mətnlərinin redaktorluğunu etdi.

Mikayıl Rəfili Bakıda Azərbaycan Dövlət Nəşriyyatında bədii şöbənin müdiri vəzifəsində işlədiyi vaxtlarda Azərbaycan Proletar Yazıçıları Birliyində də (indiki Azərbaycan Yazıçılar Birliyi) fəal çalışdı.



O, 1929-cu ildə Moskvaya I Ümumittifaq Proletar Yazıçılarının Qurultayına nümayəndə seçildi.

Əmək fəaliyyətinə müəllimliklə başlamışdı. Pedaqoji fəaliyyətini sonrakı illərdə də davam etdirdi. Azərbaycan Dövlət Pedaqoji İnstitutunda 1930-1935-ci illərdə Rus ədəbiyyatı kafedrasında müəllim, sonra dosent işləməklə yanaşı, "Bakinskiy raboçi" qəzeti redaksiyasında Mədəniyyət şöbəsinin müdir müavini işlədi. SSRİ yazıçılarının təşkilat komitəsinin, eyni zamanda "Hücum" və "Qabaqcıl" ("Udarnik") jurnalları redaksiya heyətinin üzvü oldu. Maksim Qorki, Vladimir Mayakovski və Aleksandr Serafimoviç haqqında monoqrafiyalar, "Sevastopol" və "Leninqrad" poemalarını qələmə aldı.

Yaradıcılığa şeirlə başlayan Mikayıl Rəfili əvvəlcə daha çox şair kimi tanındı. 1929-cu ildən 1939-cu ilədək işıq üzü görən "Pəncərə", "Lirik şeirlər", "Yeni tarix", "Durna", "Şəhərlərin mahnısı" şeir topluları maraqla qarşılandı, sevilə-sevilə oxundu. Filologiya elmləri doktoru, ədəbiyyatşünas-tənqidçi Vaqif Yusifli Mikayıl Rəfilinin 1936-cı ilədək həm şair, həm də tənqidçi-ədəbiyyatşünas kimi yaradıcılıq sahələrinin hər ikisində fəallıq göstərdiyini, sərbəst şeirin alovlu bir təbliğatçısı kimi həm özünün bu səpkidə şeirlər yazdığını, həm də bu tipli şeirin nəzəriyyəsini anladan məqalələrlə mətbuat səhifələrində çıxış etdiyini bildirir.

1920-1930-cu illərdə Azərbaycan ədəbiyyatı da mövcud olduğu ictimai-siyasi dövrün özü kimi mürəkkəb, ziddiyyətli idi. V.Yusifli xatırladır: "Rəfili o illərdə "beynəlmiləl bir ədəbiyyat yolunda mücadiləyə başlamışıq" deyir və yazırdı: "Biz üzümüzü Füzulilərə, Nəsimilərə, Axundovlara, Vaqiflərə, Hüseyn Cavidlərə deyil, Verxarnlara, Uitmenlərə, Cül Romenlərə, Mayakovskilərə doğru çevirməliyik". Əlbəttə, belə bir "mücadilə" yanlış addım idi və o dövrün hakim ideologiyasının təsirindən doğurdu. Rəfilinin sərbəst şeirlərində də proletar inqilabının doğurduğu sevinc ifadə olunurdu".

1930-cu illərin ikinci yarısından Mikayıl Rəfilinin yaradıcılığında elmi fəaliyyət əsas yer tutdu. O, 1934-1935-ci illərdə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında elmi işçi oldu. "Puşkinin həyat və yaradıcılığı", "Puşkin və Azərbaycan", "M.F.Axundov" əsərlərini 1935-1937-ci illərdə yazdı. Nizami yubiley komitəsi tərkibində məsul katib kimi fəaliyyət göstərdi.

Mikayıl Rəfili 1935-1936-cı illərdə SSRİ EA-nın (Leninqrad) aspiranturasında təhsil aldı. "Azərbaycan ədəbiyyatının rus mədəniyyəti ilə əlaqələri haqqında" mövzusunda dissertasiya işini də orada müdafiə etdi.

Böyük maraq, sevgi və inamla çalışan Mikayıl Rəfilini işlərinin çoxluğu heç vaxt yormadı. Çətin, təzadlı bir zəmanədə yaşayırdı. Heç nəyi unutmayan sovet hökuməti onun mülkədar oğlu olduğunu da yaddan çıxarmadı. 1930-cu illərin siyasi burulğanları Mikayıl Rəfilidən də yan keçmədi.

1937-ci il aprelin 19-da keçirilən Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin iclasının gündəliyinə "Azərbaycan Yazıçılar İttifaqının üzvü Mikayıl Həsən oğlu Rəfilinin xuliqanlıq hərəkətləri barədə" məsələ çıxarıldı. Daşnak Levon Arustamovun məlumatı əsasında Mikayıl Rəfili Azərbaycan Yazıçılar İttifaqının üzvlüyündən, Nizami adına Ədəbiyyat İnstitutundan və dərs dediyi Azərbaycan Pedaqoji İnstitutundan xaric edildi. Ünvanına amansız tənqidlər yağdırıldı, "Ədəbiyyat qəzeti"ndə onun barəsində uydurma, qərəzli ittihamlarla dolu yazılar verildi, "Kirpi" jurnalında Mikayıl Rəfili haqqında karikatura dərc edildi. Repressiyaların ölkənin kabusuna çevrildiyi bir vaxtda şər-böhtanların hədəfində olan Mikayıl Rəfili bundan xilas oldu. Amma qardaşı Rəfi həbs edildi. Digər yaxın qohumları təqiblərə, təzyiqlərə məruz qaldılar.

Həbs olunmasa da, təhdidlər davam edirdi. Mikayıl Rəfili 1937-ci ilin payızında respublikanın ozamankı rəhbəri Mircəfər Bağırova müraciət etmək məcburiyyətində qaldı. O, rəhbərə ünvanladığı məktubunda haqsızlıqlarla üzləşdiyindən bəhs etdi. Mircəfər Bağırov məktubla tanış olduqdan sonra baxılması üçün onu Azərbaycan Yazıçılar İttifaqına göndərdi. İttifaqın cavabı Mikayıl Rəfilinin xeyrinə olmadı.

Çıxılmaz vəziyyətdə qalan Mikayıl Rəfili 1937-ci ilin dekabrında Mərkəzi Komitənin rəhbərinə ikinci məktub yazmalı oldu. Mircəfər Bağırov onu "mülkədar oğlu", "sovet yazıçıları sırasına soxulan bir cani", "əksinqilabi təşkilatın üzvü" kimi daşqalaq olunmaqdan xilas etdi. Mikayıl Rəfili 1938-ci ilin yayında işinə bərpa olundu.

O, fəaliyyətini daha da böyük yaradıcılıq həvəsi ilə davam etdirdi. 1938-ci ildən Azərbaycan Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Universitetində professor kimi çalışdı. Azərbaycan ədəbiyyatı tarixi kursunu apardı. 1944-cü ildə isə doktorluq dissertasiyası müdafiə etdi. Azərbaycanın görkəmli ədəbiyyat tarixçilərindən biri kimi tanındı. Nizami Gəncəvi, Mirzə Fətəli Axundzadə, Mirzə Şəfi Vazeh, Abbasqulu Ağa Bakıxanov, Nəcəf bəy Vəzirov və başqa klassiklərimizin əsərlərinin tədqiqi Mikayıl Rəfilinin elmi fəaliyyətində mühüm yer tutdu. Onun XX əsr Azərbaycan ədəbiyyatının inkişafında göstərdiyi xidmətlər də hər zaman təqdirlə anılır.

Ancaq alimliyi şairliyini unutdurmadı. Hələ Moskvada oxuduğu illərdə tanış olduğu, dostlaşdığı şair Nazim Hikmət Mikayıl Rəfiliyə həsr etdiyi şeirində yazırdı:

*Şair ola bilərdin,*
*Professor oldun.*

Mikayıl Rəfilinin şeirləri bu gün də onun şairlik istedadını etiraf etdirir.

Onun tərcüməçilik fəaliyyəti də uğurlu oldu. Mikayıl Rəfili Balzakın "Qorio ata", "Qobsek", "Novellalar", Viktor Hüqonun "Gülən adam", "Paris Notrdam kilsəsi", "Səfillər", Puşkinin "Baxçasaray fontanı", "Tunc atlı", "Ərzuruma səyahət", Tolstoyun "Diriimə" kimi ölməz əsərlərini dilimizə çevirdi. 1939-cu ildə rusca nəşr olunan "Azərbaycan poeziyası antologiyası"nın hazırlanmasında da Mikayıl Rəfilinin əməyi böyük oldu.

İkinci Dünya müharibəsi illərində radioda, Qızıl ordu hissələrində, hərbi xəstəxanalarda çıxışlar etdi, "Səbuhi"nin ssenarisini, "Şirvanşah İbrahim" pyesini qələmə aldı. Xidmətlərinə görə "Şərəf nişanı" ordeni və medallarla təltif olundu.

Aprelin 25-i onun dünyaya göz açdığı gün idi. Mikayıl Rəfili 1958-ci ilin həmin günü dünyadan köçdü.

Əlli üç il bir insan ömrü üçün uzun hesab edilməsə də, o, bu zaman ərzində böyük işlər görə bildi. Çoxşaxəli yaradıcılığı ilə Azərbaycan elminə, ədəbiyyatına göstərdiyi xidmətlərlə unudulmaz oldu...

**Zöhrə FƏRƏCOVA,**
**"Azərbaycan"**

Azərbaycan.- 2025.- 25 aprel (№82).- S.11.